2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 20 noyabr 2014-cü il tarixli 02 saylı müraciətə baxılması barədə Mərkəzi Seçki Komissiyasının

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 70 saylı Masallı şəhər seçki dairəsi üzrə bələdiyyə üzvlüyünə namizəd Tağıyev Fərrux Musa oğlu və digərləri 2014-cü il noyabrın 20-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, 70 saylı Masallı şəhər seçki dairəsi dairə seçki komissiyasının fəaliyyətinə Rayon İcra Hakimiyyəti tərəfindən qanunsuz müdaxilə olunduğunu, Rayon İcra Hakimiyyəti başçısının Musaküçə inzibati ərazi dairəsi üzrə nümayəndəsi tərəfindən namizədlər üçün maneələr yaradıldığını bildirib, bununla əlaqədar qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq icraata qəbul edilmiş, Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipini əsas götürərək ərizəçilərin müraciəti Mərkəzi Seçki Komissiyası tərəfindən qanunla müəyyən olunmuş müddətdə və qaydada araşdırılmışdır.

Araşdırma prosesində ərizəçilər ilə əlaqə yaradılmış, araşdırmada iştirak etmək hüququ barədə onlara məlumat verilmiş, araşdırmaya yardım etməyə dəvət olunaraq müraciətdə qeyd edilən hallarla əlaqədar əlavə sübutlara malikdirlərsə, onlara həmin sübutların təqdim edilməsi təklif edilmişdir.

Şikayətdə göstərilən halların tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması, iş üzrə zəruri olan bütün sübutların əldə edilməsi nəticəsində müəyyən edilmişdir ki, şikayətçi F.M.Tağıyev və digərləri 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Musaküçə bələdiyyəsi üzrə öz təşəbbüsləri ilə namizədliklərini irəli sürmüş, namizədliyin təsdiq olunması üçün Azərbaycan Respublikası Seçki Məcəlləsinin 53-cü maddəsində nəzərdə tutulan sənədləri 2014-cü il noyabrın 6-da 70 saylı Masallı şəhər seçki dairəsi dairə seçki komissiyasına təqdim etmişlər. Həmin dairə seçki komissiyasının 7 noyabr 2014-cü il tarixli 7/27 saylı qərarı ilə Tağıyev Fərrux Musa oğlu, Eynullayev Məmmədağa Bəndalı oğlu, Abiyev Allahşükür Əmir oğlu və Abbaszadə Tərlan Soltanağa oğlunun Musaküçə bələdiyyəsi üzvlüyünə namizədlikləri maneə olmadan təsdiq olunaraq, onlara namizədin müdafiəsi məqsədilə imza toplamaq üçün imza vərəqələri verilmişdir.

Adları qeyd olunan namizədlər imza vərəqələrini və Seçki Məcəlləsinin 58.1-ci maddəsində nəzərdə tutulan digər seçki sənədlərini 2014-cü il noyabrın 17-də müvafiq dairə seçki komissiyasına şəxsən təqdim etmişlər. Həmin sənədlər baxılması üçün adıçəkilən dairə seçki komissiyasında yaradılmış işçi qrupuna verilmiş və hazırda onların yoxlanılması prosesi davam etməkdədir.

Seçki Məcəlləsinin 60.1-ci maddəsinə əsasən müvafiq seçki komissiyası imza vərəqələrini və namizədin qeydə alınması üçün lazım olan digər sənədləri qəbul etdikdən sonra 7 gün müddətində namizədin qeydə alınıb-alınmaması barədə əsaslandırılmış qərar qəbul etməlidir.

Göründüyü kimi, müvafiq dairə seçki komissiyası tərəfindən müraciətdə adları çəkilən namizədlərin bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınması müddəti ilə bağlı seçki qanunvericiliyinin tələbləri pozulmamışdır.

Bundan başqa, 70 saylı Masallı şəhər seçki dairəsi dairə seçki komissiyası sədrinin məlumatından da aydın olur ki, komissiya tərəfindən seçkilərdə iştirak etmək istəyən bütün subyektlərə passiv seçki hüquqlarını həyata keçirmək üçün bərabər imkan və şəraitlə yanaşı, seçki dairəsi üzrə namizədliyin irəli sürülməsi, təsdiqi və namizədlərin qeydə alınması üçün azad, ədalətli və şəffaf seçki mühiti də yaradılmış, seçki prosesinə heç bir qurum, o cümlədən yerli icra strukturları tərəfindən hər hansı müdaxilə və ya təzyiq göstərilməsi halları baş verməmişdir.

Müraciətdə adıçəkilən Masallı Rayon İcra Hakimiyyəti başçısının Musaküçə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Ş.Ə.Teymurov yazılı izahatında seçici siyahılarının dəqiqləşdirilməsi ilə bağlı aparılan işlər istisna olmaqla, dairə və məntəqə seçki komissiyaları ilə heç bir əlaqəsinin olmadığını, bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsi prosesinə, namizədlərin imza toplama kampaniyalarına hər hansı formada müdaxilə etmədiyini, MSK-ya edilən müraciətdə adının çəkilməsinin ərizəçilərlə aralarında olan şəxsi münasibətlərlə bağlı olduğunu bildirmişdir.

Göstərilən xüsusatlarla yanaşı, Mərkəzi Seçki Komissiyası hesab edir ki, Musaküçə bələdiyyəsi üzvlüyünə namizəd F.M.Tağıyev və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciəti təmin edilməli, Masallı Rayon İcra Hakimiyyəti strukturları tərəfindən seçkilərə müdaxilə kimi yozula biləcək hərəkətlərə yol verilməməsinin zəruriliyi onların diqqətinə çatdırılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizəd Tağıyev Fərrux Musa oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 20 noyabr 2014-cü il tarixli 02 saylı müraciəti təmin edilərək, Masallı Rayon İcra Hakimiyyətinin strukturları tərəfindən seçkilərə müdaxilə kimi yozula biləcək hərəkətlərə yol verilməməsinin zəruriliyi onların diqqətinə çatdırılsın.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |